

# Hüseynbala MİRƏLƏMOV-80

Hörmətli Hüseynbala müəllim!

Sizi - tanınmış yazıçını 80 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1945-ci ildə Lerik rayonunun Nuravud kəndində anadan olmusunuz. 1964-cü ildə Lənkəran şəhərindəki 2 №li məktəbi gümüş medalla bitirmisiniz. 1970-ci ildə Azərbaycan Texniki Universitetində ali təhsilinizi tamamlamısınız. Əmək fəaliyyətinizə "Azərbaycan pioneri" qəzetində başlamısınız. 1972-ci ildən Azərbaycan Dövlət Qazlaşdırma Komitəsinin 4 saylı Qaz Tikinti-quraşdırma İdarəsində iş icraçısı, baş mühəndis və rəis vəzifələrində işləmisiniz. "Azərqaztəmirtikinti" trestinin rəisi, Maye Qaz İstehsalat Birliyinin rəisi, Azərbaycan Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini, "Bakqaz" İstehsalat İdarəsi rəisinin müavini, Azərbaycan Qaz Emalı Zavodunun direktoru olmusunuz. III, IV və V çağırış Milli Məclisə deputat seçilmisiniz. Milli Məclisin Aqrar siyasət və Mədəniyyət Komitələrinin üzvü, Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Böyük Britanya, Azərbaycan-Litva, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü, Azərbaycan-Küveyt parlamentlərarası işçi qrupunun rəhbəri kimi səmərəli ictimai-siyasi fəaliyyət göstərmisiniz.

Ədəbi yaradıcılığa orta məktəb illərində başlamısınız. 1961-ci ildə "Bir tikə çörək" hekayəniz mətbuatda dərc edilib. İlk hekayələr kitabınız - "Tənha durna uçuşu" 1986-cı ildə işıq üzü görüb. "Yaddan çıxmaz Qarabağ", "Qayada çiçək", "Gəlinlik paltarı", "Bir gecənin sehri", "Cəza", "Yanan qar" kitablarınız maraqla qarşılanıb. "Molodaya qvardiya" Nəşriyyatının "Görkəmli adamların həyatı" seriyasından Ulu Öndər Heydər Əliyev, görkəmli oftalmoloq alim Zərifə Əliyeva və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqqında qələmə aldığınız kitablar 40-dan artıq xarici dilə tərcümə olunaraq nəşr edilib. 30-dan artıq bədii və publisistik kitabın müəllifisiniz. Elmi fəaliyyətiniz də diqqətəlayiqdir. Müəllifi və həmmüəllifi olduğunuz "Nanotexnologiya və nanokimyanın əsasları", "Neftin və qazın boru kəmərləri ilə nəqli", "İnşaat istilik fizikası", "Qaz emalı zavodlarında təhlükəsizlik qaydaları", "Boru kəmərləri və konstruksiyaların qaynağı" kimi elmi nəşrləriniz ali məktəblərdə dərs vəsaiti kimi istifadə olunur. Texnika elmləri doktoru, professorsunuz. Uzun illər ali məktəbdə dərs demisiniz. 1980-ci ildə Sovet İttifaqının "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmusunuz. "Azərbaycan Respublikasının Əməkdar mühəndisi" fəxri adına, "Şöhrət" ordeninə, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalına, bir çox ədəbi mükafatlara, beynəlxalq diplomlara layiq görülmüsünüz.

Hörmətli Hüseynbala müəllim!

Sizi bir daha 80 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**